Azərbaycan.- 2020.- 25 dekabr. S. 5.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident Əliyev, zati-aliləri!

Doğum gününüz münasibətilə Sizə cansağlığı, xoş əhvali-ruhiyyə və ölkənizin rifahı üçün ən səmimi arzularımı çatdırıram. Qarşıdakı Yeni ilin Sizə və gözəl ailənizə cansağlığı, xoşbəxtlik, Azərbaycana isə tərəqqi gətirməsini diləyirəm.

Zati-aliləri, bizi anlaşma, tolerantlıq və bir-birindən öyrənmə ideyaları ətrafında birləşdirən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyiniz dəstəyə görə Sizə öz minnətdarlığımı bildirirəm. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyada təşkil etdiyi çoxsaylı görüşlər iştirakçılarla daha yaxından tanış olmaq, həmçinin insanlar və xalqlar arasında daim yeni dostluq əlaqələri qurmaq baxımından çox gözəl fürsətdir.

Cənab Prezident, bildiyiniz kimi, bizi bir araya gətirən və irəliyə aparan hərəkətverici qüvvə həmsədrlərimiz Vaira Vike-Frayberqa və İsmail Serageldindir. Biz Nizami Gəncəvi Beynəlxalq Mərkəzini dostlarımızın bir-birinə dəstəyinin mövcud olduğu ümumi evimiz hesab edirik. Bizə belə bir imkan yaratdığınız üçün, eləcə də göstərdiyiniz davamlı dəstəyə görə Sizə təşəkkür edirəm.

Möhtərəm Prezident, doğum gününüz münasibətilə Sizi təbrik edir, bütün arzularınızın həyata keçməsini diləyirəm. Həmçinin fürsətdən istifadə edərək 2021-ci ilin Sizin üçün xoş və uğurlu keçməsini arzulayıram.

Sizinlə tezliklə Azərbaycanda görüşmək ümidindəyəm.

*Dərin hörmətlə,*

***Yadranka KOSOR,***
***Xorvatiyanın sabiq Baş naziri,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***